## Heydər Əliyev – 100

# FHN Naxçıvanda Ulu öndərin yubileyini qeyd edib

**Dünən Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi Naxçıvan şəhərində ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr edilən təntənəli toplantı keçirilib.**



Mərasimdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Azərbaycanın fövqəladə





hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov, YAP Naxçıvan şəhər təşkilatının sədri Elman Cəfərli və nazirliyin əməkdaşları iştirak ediblər.

Heydər Əliyev Sarayında keçirilən yuniley məclisində nazirlikdə hazırlanmış "Azərbaycan tarixinin Heydər Əliyev zirvəsi" filmi nümayiş olunub. Sonra səlahiyyətli nümayəndə Fuad Nəcəfli iştirakçıları salamlayıb, Fövqəladə Hallar Nazirliyinin Heydər Əliyevi xalqımıza bəxş etmiş bir şəhərdə keçirdiyi toplantının Ulu öndərin xatirəsinə ümumxalq ehtiramının daha bir göstəricisi olduğunu söyləyib.

O bildirib ki, ulu öndər Heydər Əliyev ömrünü xalqına və Vətəninə həsr edib, Azərbaycanın müstəqilliyinin və dövlətçiliyinin əsasını qoyub. İstər Sovetlər Birliyi, istərsə də müstəqillik dövründə Ümummilli liderin ömür yolu, bütövlükdə, Azərbaycana xidmətdə keçib. 1990–1993-cü illərdə Naxçıvanda yaşayıb fəaliyyət göstərən Ümummilli lider müstəqil dövlətçiliyimizin əsaslarını burada formalaşdırıb. Heydər Əliyev ölkəmizi müstəqilliyin ilk illərində düşdüyü ağır siyasi, iqtisadi və sosial böhran vəziyyətindən çıxararaq dövlətçiliyimizi və müstəqilliyimizi qoruyub.

Səlahiyyətli nümayəndə diqqətə çatdırıb ki, 1993–2003-cü illərdə dahi şəxsiyyətin rəhbərliyi ilə torpaqlarımızın işğalının qarşısı alınıb, sosial-iqtisadi inkişaf strategiyasının əsası qoyulub, genişmiqyaslı islahatlar həyata keçirilib, ölkəyə xarici sərmayələr cəlb edilib və ölkə iqtisadiyyatının dinamik inkişafı təmin edilib. Bu illərdə Heydər Əliyevin gərgin zəhmət, əzm, zəngin siyasi təcrübə, möhkəm iradə və ən əsası, hədsiz Vətən sevgisi sayəsində reallaşdırdığı nəhəng işlər Azərbaycan tarixinə silinməz qızıl hərflərlə yazılıb. Ordu quruculuğuna başlanılıb, vətəndaş həmrəyliyi təmin olunub. Ölkəmizdə mütərəqqi dövlət idarəçiliyi sistemi formalaşdırılıb, əhalinin rifahı yüksəldilib. Milli həmrəylik və bütövlüyü ehtiva edən azərbaycançılıq məfkurəsi dövlət quruculuğu siyasətinin mühüm tərkib hissəsi kimi milli ideologiyamızı formalaşdırıb, ölkəmizdə davamlı sabitliyə nail olunub.

Fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov xalqımızın böyük oğlu ümummilli lider Heydər Əliyevin mənalı həyat yolundan, Vətən qarşısında tarixi xidmətlərindən danışıb: "Ulu öndərin çoxşaxəli fəaliyyəti də, şəxsiyyəti də Azərbaycan tarixinin ayrılmaz, şərəfli bir hissəsini təşkil edir. Onun qurub yaratdıqları, müdrik ideyaları, müqəddəs irsi təkcə dünənimiz və bu günümüz üçün deyil, eyni zamanda, gələcəyimiz üçün də əvəzsizdir".

Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi 10 il Azərbaycanın ən yeni tarixinə sosial-iqtisadi yüksəliş dövrü kimi yazılıb. Bu illər ərzində ictimai-siyasi sabitlik və təhlükəsizlik təmin olunub, dövlət idarəçiliyi mexanizmi yenidən yaradılıb,

Nazir daha sonra qeyd edib ki, Ulu öndərin müqəddəs yolunu uğurla davam etdirən, ata vəsiyyətini şərəflə yerinə yetirən ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin müdrik rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu Vətən müharibəsində qazanılan tarixi Zəfərin davamı olaraq "Heydər Əliyev İli"ndə lokal antiterror tədbirləri ilə ölkə ərazisində dövlət suverenliyimizi tam bərpa etdi.

Sonda nazir Kəmaləddin Heydərov vurğulayıb ki, Fövqəladə Hallar Nazirliyinin kollektivi ümummilli lider Heydər Əliyevin ideyalarına, dövlətçilik xəttinə sadiq qalaraq bundan sonra da bütün qüvvə və bacarığını müstəqil respublikamızın yüksəlişi, tərəqqisi naminə səfərbər edəcəkdir.

Tədbirdə digər çıxış edənlər ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı tarixi xidmətlərindən danışıb, müasir Azərbaycan dövlətinin Heydər Əliyevin şah əsəri olduğunu iftixar hissi ilə dilə gətiriblər. Tədbir bədii hissə ilə davam edib.

*XQ*